1_Layout 1 14.08.2018 23:42 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*
**İlham ƏLİYEV**


# ƏSGƏR

№ 16 (532)

15 avqust 2018-ci il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti


# TACİKİSTAN PREZİDENTİ EMOMƏLİ RƏHMON AZƏRBAYCANA RƏSMİ SƏFƏRƏ GƏLİB

***Azərbaycan Respublikasına rəsmi səfərə gələn Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmonun avqustun 10-da rəsmi qarşılanma mərasimi olub.***

***AZƏRTAC xəbər verir ki, hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda Tacikistan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.***

***Azərbaycan Prezidenti İlham Əliyev Tacikistan Prezidenti Emoməli Rəhmonu qarşıladı.***

***Fəxri qarovul dəstəsinin rəisi Tacikistan Prezidentinə raport verdi.***

***Tacikistan Prezidenti Azərbaycan əsgərlərini salamladı.***

***Tacikistan Respublikasının və Azərbaycan Respublikasının Dövlət Himnləri səsləndi.***

***Azərbaycan Respublikasının dövlət və hökumət nümayəndələri Prezident Emoməli Rəhmona, Tacikistan Respublikasının nümayəndə heyətinin üzvləri Prezident İlham Əliyevə təqdim olundu.***



Rəsmi qarşılanma mərasimi başa çatandan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmonun təkbətək görüşü olub.

Təkbətək görüş başa çatandan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmonun nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olub.

**Prezidentlər görüşdə çıxış etdilər.**

**Azərbaycan Prezidenti İlham Əliyev dedi:**

-Hörmətli cənab Prezident, hörmətli qonaqlar.

Emoməli Şərifoviçi Azərbaycanda bir daha səmimi qəlbdən salamlayıram. Sizi yenidən görməyə çox şadam. Bizim bu gün ikitərəfli münasibətlərin gündəliyini ətraflı müzakirə etmək imkanımız oldu, regional əməkdaşlıq məsələlərinə toxunduq. Bu gün nümayəndə heyətlərinin iştirakı ilə işimizi davam etdirəcəyik.

Biz Sizi Azərbaycanda görməyimizə çox şadıq. Əminəm ki, Sizin səfəriniz ölkələrimiz arasında dostluq, qardaşlıq münasibətlərinin inkişafına yeni impuls verəcək. Biz beynəlxalq arenada çox fəal qarşılıqlı fəaliyyət göstəririk. Tacikistan və Azərbaycan iştirak etdiyimiz beynəlxalq təşkilatlarda ənənəvi olaraq bir-birini dəstəkləyir və bu dəstək ölkələrimiz üçün çox əhəmiyyətlidir.

Biz bu gün qarşılıqlı iqtisadi fəaliyyəti də müzakirə edəcəyik. Artıq nümayəndə heyətlərinin üzvləri fəal iş aparıblar. Sizin səfəriniz ərəfəsində səfərlə bağlı materialları hazırlamaq və iqtisadi layihələr, o cümlədən nəqliyyat, ölkələrimizin sənayesinin inkişafına dair layihələr üzrə vacib qərarlar qəbul etmək üçün ölkələrimizin rəsmi təmsilçilərinin bir neçə görüşü keçirilib. Biz bu haqda artıq danışmışıq və daha geniş tərkibdə bu məsələləri müzakirə edəcəyik.

Əlbəttə ki, münasibətlərimizin vacib hissəsini humanitar sahədə əməkdaşlıq təşkil edir. Burada biz xalqlarımız arasında ənənəvi əlaqələrə istinad edirik. Bu əlaqələr bugünkü münasibətlər üçün yaxşı təməldir. Düşünürəm ki, qarşıdakı illərdə biz, həmçinin, xalqlarımızın daim sıx təmasda olması məqsədilə ölkələrimizdə mütəmadi mədəni tədbirlər keçirmək üçün iş aparmalıyıq. Münasibətlərimizin gündəliyi çox genişdir. Biz mütəmadi görüşürük, səfərlər, beynəlxalq xarakterli tədbirlər çərçivəsində vacib məsələləri müzakirə edirik. Şadıq ki, bu gün dostluq münasibətləri uğurla inkişaf edir. Mən bir daha Sizi səmimi qəlbdən salamlayıram və Azərbaycanda vaxtınızı yaxşı keçirməyi arzulayıram.

**Tacikistan Prezidenti Emoməli Rəhmon dedi:**

-Çox sağ olun hörmətli İlham Heydər oğlu və əziz azərbaycanlı dostlar. Biz bugünkü görüşümüzə çox şadıq. İlk növbədə, dost Azərbaycana rəsmi səfərə dəvətə, səmimi qəbula



və göstərilən qonaqpərvərliyə görə minnətdarlığımızı bildirmək istərdim.

Tacikistan Respublikası xalqlarımız arasında tarixi-mədəni birliyə və çoxəsrlik ənənələrə əsaslanan dostluq əlaqələrini yüksək dəyərləndirir. Qeyd etməyə şadam ki, bu gün Tacikistan-Azərbaycan münasibətləri getdikcə inkişaf edir. Biz qarşılıqlı maraq doğuran əməkdaşlığımızın bütün istiqamətləri üzrə məhsuldar fəaliyyətimizin genişləndirilməsində və dərinləşdirilməsində maraqlıyıq. Əminəm ki, bu gün əldə edəcəyimiz razılaşmalar çoxşaxəli tərəfdaşlığımızı yeni məzmunla zənginləşdirəcək, daha yüksək və keyfiyyətli səviyyəyə çıxaracaq.

Hörmətli İlham Heydər oğlu, müstəqillik illərində öz sosial-iqtisadi inkişafında böyük uğurlar əldə edən Azərbaycanın beynəlxalq arenada mövqeləri ardıcıl surətdə möhkəmlənir. Ölkənin uğurunun parlaq nümunəsi onun paytaxtının simasının ildən-ilə dəyişməsidir. Mən görüş zamanı bu barədə danışdım. Bakı bu gün haqlı olaraq dünyanın ən gözəl və müasir şəhərlərindən biri sayılır. Bütün bu nailiyyətlər Sizin cəmiyyət tərəfindən daha çox və hərtərəfli dəstəklənən uğurlu dövlət siyasətinizlə əlaqədardır. Səmimi qəlbdən Sizə uğurlar və Azərbaycan xalqının rifahı naminə nailiyyətlər arzulayıram.

Azərbaycan Qafqaz regionunda bizim üçün mühüm tərəfdaşdır. Məmnuniyyətlə Tacikistan-Azərbaycan münasibətlərinin uğurla genişləndirilməsi meylini qeyd etmək istərdim. Dostluq və əməkdaşlıq barədə müqaviləyə əsaslanaraq ötən illər ərzində biz münasibətlərimizin sanballı müqavilə-hüquq bazasını formalaşdırmışıq. Bu baza bu gün demək olar ki, əməkdaşlığın bütün sahələrini əhatə edir. Bu gün ölkələrimiz arasında qarşılıqlı faydalı əməkdaşlığın möhkəmlənməsinə yönələn ikitərəfli sənədlərin yeni paketi imzalanacaq.

Geniş tərkibdə görüş başa çatandan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmonun iştirakı ilə sənədlərin imzalanması mərasimi olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon dövlət başçılarının Birgə Bəyanatını imzaladılar.

Sənədlərin imzalanması mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon mətbuata bəyanatlarla çıxış ediblər.

# DAXİLİ İŞLƏR NAZİRLİYİ MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

***Daxili İşlər Naziri, general-polkovnik Ramil Usubovun dəvəti ilə Türkiyə Respublikası Jandarm Qüvvələrinin Baş Komandanı, ordu generalı Arif Çetinin başçılıq etdiyi nümayəndə heyəti ölkəmizə rəsmi səfərə gəlib.***

Əvvəlcə cənab Arif Çetin və onu müşayiət edən şəxslər Fəxri xiyabana gedərək xalqımızın Ümummilli Lideri Heydər Əliyevin məzarı önünə əklil qoyub, ulu öndərin əziz xatirəsini ehtiramla yad ediblər. Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da məzarı üstünə tər çiçəklər düzülüb.

Daha sonra qardaş ölkənin təmsilçiləri Şəhidlər Xiyabanındakı "Əbədi məşəl" kompleksini və Türk Şəhidliyini ziyarət ediblər.

Avqustun 14-də Daxili İşlər Naziri, general-polkovnik Ramil Usubov ordu generalı Arif Çetinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

Qonaqları salamlayan nazir müstəqilliyini əldə etdikdən sonra Azərbaycanın Türkiyə ilə əlaqələrinin hər zaman yüksələn xətlə inkişaf etdiyini, Ulu Öndər Heydər Əliyevin bu sahədəki xidmətlərini, onun "Bir millət, iki dövlət" siyasətinin Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirildiyini, dövlət başçılarının siyasi iradəsi və qarşılıqlı səfərləri nəticəsində dost və qardaş ölkələrimiz arasındakı münasibətlərin keyfiyyətcə yeni mərhələyə qədəm qoyduğunu məmnunluqla xatırladıb.





Nazir rəhbərlik etdiyi qurumun Türkiyənin Daxili İşlər Nazirliyi, o cümlədən Jandarm Komandanlığı ilə münasibətlərin əməkdaşlığın genişləndirilməsinə böyük önəm verildiyini, Daxili Qoşunların formalaşmasında, ən müasir tələblərə cavab verən quruma çevrilməsində, şəxsi heyətin peşəkarlığının daha da yüksəldilməsində Türkiyə Jandarm Komandanlığının böyük xidməti olduğunu xüsusi vurğulayaraq buna görə təşəkkürünü bildirib.

Daha sonra qonağa müstəqilliyin ilk illərində respublikamızın qarşılaşdığı problemlər, Ermənistanın silahlı qüvvələri tərəfindən torpaqlarımızın işğalı, 1 milyondan artıq soydaşımızın doğma yurdlarından qaçqın düşməsi, ölkəmizdə cərəyan edən gərgin ictimai-siyasi proseslər barədə ətraflı məlumat verilib. Qeyd olunub ki, Ulu Öndər Heydər Əliyevin xalqın tələbi ilə ali hakimiyyətə tarixi qayıdışından sonra onun rəhbərliyi altında cəmiyyət həyatının bütün sahələrində, o cümlədən cinayətkarlıqla mübarizə, ictimai təhlükəsizliyin təmini sahəsində həyata keçirilən qətiyyətli tədbirlər nəticəsində Azərbaycanda kriminogen durum tam nəzarətə götürülüb.

Bildirilib ki, bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında ölkəmizin son illərdəki sürətli inkişafını şərtləndirən əsas amillərdən olan dönməz ictimai-siyasi sabitlik, əmin-amanlıq yaradılıb.

Nazir Türkiyə Jandarm Quvvələri Baş Komandanının ölkəmizə səfərinin əlaqələrimizin inkişafına və daha da dərinləşməsinə müsbət təsir göstərəcəyinə əminliyini ifadə edib.

Səmimi qəbula və ətraflı məlumata görə minnətdarlığını bildirən ordu generalı Arif Çetin Azərbaycana səfərindən, Bakının dünyanın ən gözəl paytaxtlarından, ən təhlükəsiz şəhərlərindən biri olmasından, ölkəmizin dinamik, sürətli inkişafından, eyni zamanda, Daxili Qoşunların yüksək peşəkarlığa və döyüş qabiliyyətinə malik mobil bir quruma çevrilməsindən məmnun olduğunu bildirib.

O, iki ölkənin müvafiq orqanları arasındakı faydalı işbirliyini yüksək qiymətləndirib, "Bir millət, iki dövlət" olaraq Türkiyənin hər zaman Azərbaycanın yanında yer aldığını, ordusunun, Daxili Qoşunlarının inkişafı üçün bundan sonra da səylərini əsirgəməyəcəklərini, belə əməkdaşlığın, təcrübə mübadiləsinin qardaş xalqlarımızın və ölkələrimizin mənafelərinə xidmət etdiyini vurğulayıb.

Dostluq və mehribanlıq şəraitində keçən görüşdə tərəfləri maraqlandıran bir sıra digər məsələlər də müzakirə edilib.

Qəbulda Türkiyə Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfirinin birinci müavini Volkan Öskiper iştirak edib.

Daha sonra Daxili Qoşunların Baş İdarəsində Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların komandanı, general-leytenant Şahin Məmmədovun ordu generalı Arif Çetinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşü olub.

General-leytenant Şahin Məmmədov Türkiyə Jandarm Baş Komandanlığı ilə Daxili İşlər Nazirliyinin Daxili Qoşunları arasında dostluq və hərbi əməkdaşlıq münasibətlərinin daha da genişləndiyini qeyd edib, qonaqlara Qoşunların yaranma tarixi, strukturu, normativ-hüquqi bazası, döyüş yolu və inkişafı barədə ətraflı məlumat verib.

Ordu generalı Arif Çetin respublikamıza səfər etməsindən məmnunluğunu ifadə edərək iki ölkənin müvafiq qurumları arasında əlaqələri yüksək qiymətləndirib.

Avqustun 16-dək davam edəcək səfər zamanı dost və qardaş ölkənin nümayəndə heyəti Daxili Qoşunların Ali Hərbi Məktəbində təlim-tədrisin təşkili, kursantlar üçün yaradılmış hərtərəfli şərait, o cümlədən Bakı şəhərində yerləşən "N" saylı hərbi hissə ilə tanış olacaq, sonra Qoşunların Təlim Mərkəzində isə xüsusi-taktiki təlimi izləyəcək, həmçinin, Heydər Əliyev Mərkəzini və paytaxtımızdakı digər tarixi, mədəniyyət abidələrini ziyarət edəcəklər.

2_Layout 1 14.08.2018 23:44 Page 1



# DAXİLİ QOŞUNLARIN KOMANDANI VETERANLARLA GÖRÜŞÜB



Daxili Qoşunların tərkibində ictimai təşkilat olaraq Veteranlar Şurası fəaliyyət göstərir və veteranlarımız qoşunlarla əlaqələrini itirməyərək şəxsi heyətin hərbi-vətənpərvərlik tərbiyəsinə layiqli töhfə verirlər. Daxili Qoşunlarda bütün əlamətdar tədbirlərdə veteranlarımız dəvət olunaraq iştirak edirlər.

Avqust ayının 4-də Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədov Daxili Qoşunların veteran hərbi qulluqçuları ilə görüşüb. Veteranlar qarşısında çıxış edən cənab Komandan onları salamlayaraq bu görüşdən məmnunluq duyduğunu bildirib. O, qeyd edib ki, veteranlar cəmiyyətimizdə hörmətlə yanaşılan vətəndaşlıq mövqeləri və ictimai fəallıqları ilə həmişə fərqləniblər. Veteranlarımızın böyük əksəriyyəti Daxili Qoşunların nüfuzunu uca tutur, xidməti fəaliyyəti barədə cəmiyyətdə müsbət imicinin formalaşmasına olduqca həssas yanaşırlar. Bir çox veteranın övladı və ya qohumu Daxili Qoşunlarda hərbi xidmətdədir. Bu hərbi qulluqçular layiqincə xidmət edirlər və komandanlığın onlardan narazılığı yoxdur.

General-leytenant Şahin Məmmədov öz çıxışında veteranları məlumatlandıraraq bildirib ki, dövlət qayğısı ilə əhatə olunmuş Daxili Qoşunlarda inkişaf bu gün də davam etməkdədir. Şirvan şəhərində və Qəbələ rayonunda yeni hərbi şəhərciklərin salındığını, şəxsi heyətin xidmətaparma yerlərinin, sosial-məişət şəraitinin müasir standartlar səviyyəsində qurulduğunu vurğulayan Komandan qeyd edib ki, döyüşlərdə iştirak etmiş, bu gün də sıralarımızda olan 10 nəfər Silahlı Qüvvələr veteranına şəxsi mənzillər təqdim olunub. Qoşunların döyüş qabiliyyətinin artırılması üçün yeni müasir silahlar, xüsusi vasitələr, döyüş və digər texnika alınaraq hərbi qulluqçuların istifadəsinə verilib. Bu qayğıya cavab olaraq şəxsi heyət qarşısına qoyulmuş tapşırıqların keyfiyyətlə yerinə yetirilməsinə həmişə hazırdır, bu məqsədlə əzmlə peşəkarlığını artırır.

Əlavə olaraq Komandan veteranların təşkilatlanması, ictimai mənafelərinin qorunması, hüquqi maarifləndirilməsi, sosial problemlərinin həll olunması, tibbi təminatı sahəsində qayğı göstərilməsi, onların hərbi hissələr, təhsil müəssisələri, gənclər təşkilatları ilə təmaslarının möhkəmləndirilməsi, ölkəmizin və bir sıra dövlətlərin veteran qurumlarının təcrübəsinin öyrənilməsi yönündə fikir və mülahizələrini səsləndirib, tövsiyələrini verib. Bildirilib ki, Veteranlar Şurasının sədri vəzifəsinin Daxili Qoşunların ştat tərkibinə daxil edilməsi məsələsi nəzərdən keçirilir və bu təşəbbüs reallaşarsa, ictimai təşkilat rəhbərinin rəsmi səlahiyyətli şəxs kimi fəaliyyət göstərməsinə imkan verəcək. Bu addım Veteranlar Şurasının fəaliyyətinin təkmilləşdirilməsi baxımından məqsədəuyğundur. Vurğulanıb ki, veteranlarımızın hərbi hissələrdə şəxsi heyətlə görüşlərinin intensivliyi, onların hərbi qulluqçuların vətənpərvər döyüşçü kimi formalaşmasında, mənəvi-psixoloji durumlarının möhkəmləndirilməsində rolu daha da artırılmalıdır. Hər bir veteranın keçdiyi şərəfli xidmət yolunun hal-hazırda xidmət edən hərbi qulluqçular üçün örnək, tərbiyə işində isə mühüm amil olduğuna əminliyini bildirən Komandan bu istiqamətdə fəaliyyətin daha da genişləndirilməsini veteranların nəzərinə çatdırıb.

Daha sonra Komandan respublikamızın digər regionlarında yaşayan veteranlarla da əlaqələrin saxlanılmasının, onların problemlərinin öyrənilməsinin vacibliyini qeyd edib. Daxili Qoşunlarda gedən inkişaf proseslərinə dövlət dəstəyinin ictimaiyyət arasında geniş təbliğ olunmasını da əsas vəzifə kimi veteranlar qarşısında bildirib.

Daxili Qoşunların Komandanı görüşdə iştirak edən veteranların müraciətlərini də dinləyib, qaldırılan məsələlərlə bağlı aidiyyəti vəzifəli şəxslərə lazımi göstərişlər verib.

Sonda Respublika Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin veteranlara yüksək diqqət və qayğı göstərdiyini, Daxili İşlər Naziri general-polkovnik Ramil Usubovun veteranlarla bağlı məsələləri daim nəzarətində saxladığını vurğulayan Komandan veteranların zəngin həyat və xidmət təcrübəsinə istinad olunmasına hər zaman ehtiyac olduğunu nəzərə çatdırıb.

Veteranlar Şurasının sədri Çingiz Daşdəmirov veteranlar adından Daxili Qoşunların Komandanına belə görüşün təşkilinə, göstərilən diqqət və qayğıya görə minnətdarlığını bildirib.

Daxili Qoşunların veteranı, şair Elxan Xəzərin yeni çapdan çıxmış kitabı cənab Komandana təqdim olunub. Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı general-leytenant Ş.Məmmədov veteranlarla xatirə şəkli çəkdirib.

**"Əsgər"**

# DAXİLİ QOŞUNLARIN KOMANDANI YENİ HƏRBİ XİDMƏTƏ QƏBUL OLUNMUŞ ÇAĞIRIŞÇILARLA GÖRÜŞÜB

Avqustun 4-də Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədov 25031 saylı hərbi hissədə Daxili Qoşunların sıralarına yeni xidmətə qəbul olunmuş çağırışçılarla görüşüb. Daxili Qoşunların Komandanı onları salamlayaraq, gənclərin hərbi xidmət keçməsinin şərəfli və qürurverici bir vəzifə xüsusi əməliyyatlarda hərbi qulluqçularımız qəhrəmanlıq nümunələri göstəriblər. Həmçinin, Daxili Qoşunların şəxsi heyəti qarşısına qoyulmuş digər mühüm tapşırıqların yerinə yetirilməsində də əzmkarlıq nümayiş etdirib.




Daxili Qoşunların Komandanı bildirib ki, xidməti fəaliyyətdə müsbət ənənələrin qorunub saxlanması, uğurlu nəticələrin davam etdirilməsi üçün şəxsi heyətin mənəvi-psixoloji hazırlığı, mükəmməl döyüş təlimi mühüm rol oynayır. Hər bir əsgər ləyaqət və məsuliyyətlə xidmət etməyi qarşısına əsas məqsəd qoymalı, komandirlərin öyrətdikləri hərbi biliklərə dərindən yiyələnməli, əsl döyüşçü kimi formalaşmalıdır.

Cənab Komandan hərbi xidmətin sınaq məktəbi olduğunu vurğulayıb. O, xüsusi olaraq qeyd edib ki, Respublika Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında ölkəmizdə ordu quruculuğunda əldə edilən möhtəşəm uğurlar cəmiyyətimizdə hərbi-vətənpərvərlik tərbiyəsinin güclənməsinə, ictimaiyyətin Silahlı Qüvvələrimizə rəğbətinin daha da artmasına, gənclərin hərbi xidmətə böyük həvəslə, ruh yüksəkliyi ilə gəlməsinə öz töhfəsini vermiş olur. Bu gün Silahlı Qüvvələrimiz, o cümlədən Daxili İşlər Nazirliyinin Daxili Qoşunları dövlət başçısının yüksək diqqət və qayğısı ilə əhatə olunub. Şəxsi heyətin xidmət və məişət şəraiti müasir standartlara uyğundur. Valideynlər artıq övladlarını hərbi xidmətə arxayınlıqla yola salır, hərbi hissələrimizdə gördükləri müsbət reallıqlardan məmnunluqlarını bildirirlər.



General-leytenant Ş.Məmmədov nəzərə çatdırıb ki, Daxili İşlər Nazirliyinin Daxili Qoşunları fəaliyyət göstərdiyi 26 ildən çox müddətdə həmişə Vətənimizə və dövlətçiliyimizə sədaqətlə xidmət edib. Respublikamızın ərazi bütövlüyü uğrunda döyüşlərdə, ictimai təhlükəsizliyin qorunması üzrə duğunu vurğulayaraq, hərbi kollektivdə sağlam mənəvi ab-havanın qorunub saxlanması, tabelik münasibətlərinin düzgün qavranılması, gündəlik olaraq hərbi nizamnamələrin tələblərinin ciddi yerinə yetirilməsi məqamlarına toxunaraq şəxsi heyətə öz tövsiyələrini çatdırıb. O, əsgərlərə qoşunların sıralarında hərbi xidmətlərində uğurlar arzulayıb.

Hərbi hissədə olarkən general-leytenant Ş.Məmmədov şəxsi heyətin xidmət və məişət şəraiti, təlim-tərbiyə prosesinin təşkili ilə yaxından maraqlanıb, hərbi hissənin komandanlığına, bölmə komandirlərinə müvafiq tapşırıqlar verib.

**"Əsgər"**

# ƏMƏLİYYAT VƏ QANKÖÇÜRMƏ ŞÖBƏSİ FUNKSİONAL VƏZİFƏLƏRİNƏ MƏSULİYYƏTLƏ YANAŞIR

***"Əsgər" qəzetinin ötən sayında Daxili Qoşunların Hərbi Qospitalında peşəkar tibb personalı ilə hərbi qulluqçuların sağlamlığının keşiyində mətin dayanan bir şöbəsi barədə məlumat vermişdik. Bu buraxılışımızda isə zəngin təcrübəsi, fədakar xidməti ilə seçilən Əməliyyat və qanköçürmə şöbəsini sizə təqdim edirik.***

Şöbənin şəxsi heyəti səylə çalışır, üzərinə düşən vəzifələri keyfiyyətlə yerinə yetirir. Bu şöbə təcili və planlı əməliyyatlara hazırlıq görür, bu əməliyyatların icrasını həyata keçirir. Əməliyyat zamanı sterilliyi qoruyur, ehtiyac olduqda xəstələrə qan və plazma elementləri köçürür.

Əməliyyat və qanköçürmə şöbəsinin rəisi vəzifələrini icra edən tibb xidməti leytenantı Günay Tapdıqova şöbənin fəaliyyətini Daxili İşlər Nazirinin müvafiq əmrinin tələbləri əsasında qurur. Onun sözlərinə görə, şöbədə üç əməliyyat və bir sterilizasiya otağı fəaliyyət göstərir. Böyük əməliyyat otağında steril, profil cəhətdən ümumi cərrahi və uroloji əməliyyatlar icra olunur. İkinci əməliyyat otağında laporoskopik və travmatoloji əməliyyatlar həyata keçirilir. Üçüncü, ölçücə kiçik əməliyyat otağında isə irinli və proktoloji əməliyyatlar olunur. Sterilizasiya otağında avtoklav və sterilizatorlar var ki, bunların vasitəsilə də aparılan cərrahi əməliyyatlar üçün steril material, həmçinin, steril alətlər dəsti hazırlanır.

Şöbədə hərbi qulluqçuların xidməti fəaliyyəti gündüz və gecə növbələri şəklində təşkil olunub. Gecə növbəsində daxil olan təcili xəstələrə yardımın göstərilməsində əməliyyat blokunun növbətçi tibb bacısı və kiçik tibb işçisi iştirak edir.

Şöbənin hərbi qulluqçularının üzərinə düşən vəzifələrə gəldikdə isə, baş tibb bacısı kiçik gizir Aynur Ağayeva hər gün əməliyyat otaqlarını yoxlayır, aseptika və antiseptika qaydalarına ciddi riayət olunmasını, bakterioloji müayinələrin vaxtlı-vaxtında aparılmasını, eyni zamanda məhlulların, cərrahi alətlərin və tikiş materiallarının düzgün sterilizasiya edilməsini nəzarətdə saxlayır. Əməliyyat və qanköçürmə şöbəsində qanköçürmə kabinet rəisi gizir Pərvanə Nağıyeva kabinetin təmizliyini, sanitar-gigiyenik vəziyyətini, vaxtlı-vaxtında dezinfeksiya olunmasını, eləcə də zəruri hallarda baş tibb bacısının vəzifələrini həyata keçirir. Şöbədə yerləşən sterilizasiya, narkoz üçün, qanköçürmə və başqa tibbi aparatların müntəzəm, habelə düzgün işləməsi, bütün cərrahi alətlərin, aparatların, dərmanların, sarğı materiallarının təmiz saxlanılması, vaxtında dəyişdirilməsi tibb bacıları baş çavuşlar Günay Hacıyevanın, Esmira Bağırovanın,





Əsli Həsənalıyevanın, Tamara Hüseynovanın və çavuş Azadə Qafarovanın funksional vəzifələridir. Bununla yanaşı, alətlərin, dərmanların, efir və xloroformun, sarğı, o cümlədən tikiş materiallarının, cərrahi ağların və s. düzgün saxlanılması da tibb bacılarının gördüyü işlərdəndir.

Bir sözlə, Əməliyyat və qanköçürmə şöbəsi funksional vəzifələrindən irəli gələn tapşırıqlara məsuliyyətlə yanaşır və xidməti-döyüş fəaliyyətini uğurla həyata keçirir.

**kapitan T.Əlizadə**

# ŞƏXSİ HEYƏT REGİONDAKI SABİTLİYİN QORUNUB SAXLANILMASINDA FƏDAKARLIQ NÜMAYİŞ ETDİRİR

***Hərbi hissənin döyüş hazırlığının qorunub saxlanılmasında xüsusi əhəmiyyət kəsb edən bölmələrdən biri də xüsusi təyinatlı dəstədir. Dəstənin əsas fəaliyyəti regiondakı ictimai təhlükəsizliyin qorunub saxlanılması ilə yanaşı, hüquqazidd əməllərin qarşısının alınması, o cümlədən silahlı cinayətkarların axtarılıb tutulması və zərərsizləşdirilməsidir.***



Dəstə komandiri polkovnik-leytenant Sahib Mürsəlov bildirdi ki, yüksək döyüş hazılığını qoruyub saxlamaq məqsədilə şəxsi heyət mütəmadi olaraq məşğələlərə cəlb olunur. Praktiki tədrisə üstünlük verdiyini deyən komandir Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanının müvafiq əmrinə əsasən şəxsi heyətin ayda 1 dəfə olmaqla 2-3 günlük "Dəstə reyd fəaliyyətində" mövzusunda xüsusi-taktiki təlimlərə cəlb olunduğunu qeyd etdi. Vurğuladı ki, məşğələlər xüsusi-taktiki hazırlıq, hərbi dağçılıq, hərbi topoqrafiya, hərbi mühəndis hazırlığı, ləpirçilik, həmlə-desant hazırlığı mövzularında keçirilir.

Bu zaman təlimlərin keçirilməsi üçün öncədən məntəqə müəyyənləşdirilir, şəxsi heyətin təyin olunmuş məntəqəyə marşı keçirilir. Xidməti-döyüş fəaliyyətinin basqın, pusqu, axtarış, kəşfiyyat və digər fəaliyyətlərini özündə ehtiva edən təlimlər zamanı şəxsi heyətin bilik və bacarıqlarının, həmçinin, dözümlülük qabiliyyətinin artırılması, cinayətkarların axtarılması və tutulması zamanı hər hansı bir maneə ilə rastlaşdıqda onu ötüb keçmə üsulları öyrədilir, komandir heyətinin isə real döyüş şəraitinə uyğun düzgün qərarların verilməsi vərdişləri təkmilləşdirilir. Keçirilən praktiki məşğələlər şəxsi heyətin peşə vərdişlərinin artırılmasında əhəmiyyətli rol oynayır.

Dəstə komandiri təlimlər zamanı şəxsi heyət tərəfindən təhlükəsizlik qaydalarına da ciddi riayət olunduğunu qeyd etdi. Hərbi qulluqçuların döyüş hazırlığını qənaətbəxş hesab edən komandir məşğələlərdə şəxsi heyətin fəallığını onların mənəvi-psixoloji keyfiyyətlərinin yüksək olması ilə əlaqələndirdi. O, bu işdə dəstə komandirinin tərbiyə işləri üzrə müavini mayor Ziya Məmmədovun xidmətini yüksək qiymətləndirdi.

Həmçinin, əlavə etdi ki, iyul ayının 27-dən 30-dək dəstənin şəxsi heyəti polis orqanlarının, Dövlət Sərhəd Xidmətinin əməkdaşları, meşə qoruyucuları ilə birlikdə Zaqatala, Balakən və Qax rayonlarının ərazilərində "Xaş-xaş - 2018" adlı əməliyyata cəlb olunub. Bundan əlavə, Zaqatala rayonunun Car kəndi ətrafında "Cindi" dağı istiqamətində yerli polis şöbəsinin əməkdaşları ilə birlikdə itmiş vətəndaşın əməliyyat-axtarış tədbirlərinə cəlb olunublar. Əməliyyatlar zamanı şəxsi heyət yüksək nizam-intizam nümayiş etdirib, onlara həvalə edilmiş vəzifələrin öhdəsindən layiqincə gəliblər.

**kapitan T.Əlizadə**

# XİDMƏTƏ YENİ QƏBUL EDİLMİŞ ÇAĞIRIŞÇILARIN HƏRBİ ANDİÇMƏ MƏRASİMİ KEÇİRİLİB

***Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədovun hərbi andiçmə münasibətilə əsgərlərə ünvanladığı təbriki çatdırılıb.***

Avqustun 11-də Daxili Qoşunların "N" saylı hərbi hissəsində xidmətə yeni qəbul edilmiş əsgərlərin hərbi andiçmə mərasimi keçirilib. Tədbirdə Daxili Qoşunlar Koman-



danının 1-ci müavini – Qərargah rəisi general-mayor Tofiq Hüseynov, Veteranlar Şurasının üzvləri və əsgər valideynləri işti - rak ediblər.

Mərasim Ümummilli Lider Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsinin yad edilməsi ilə başlayıb. Daxili Qoşunların Nümunəvi Göstərici Hərbi Orkestrinin müşayiəti ilə Dövlət Himni ifa edilib.

Əsgərlər hərbi and içərək, Azərbaycan Respublikasının mənafeyini, onun suverenliyini, ərazi bütövlüyünü və müstəqilliyini şərəflə qoruyacaqlarına, bundan ötrü canlarını belə əsirgəməyəcəklərinə söz veriblər.

Hərbi hissə komandiri polkovnik Əhliman İlmazov çıxış edərək əsgərlərə hərbi andın mənasını, öz xalqına, Azərbaycan Respublikasına sadiq olacaqlarına and içən hərbi qulluqçuların üzərinə düşən şərəfli və məsul vəzifələri, eləcə də Azərbaycan Respublikası Konstitusiyasının müvafiq maddələrinin tələblərini xatırladıb.

Sonra Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanının hərbi andiçmə münasibətilə əsgərlərə ünvanla - dığı təbriki çatdırılıb. Təbrikdə hər bir əsgərin Vətənə şərəflə xidmət edəcəyinə, Azərbaycan Respublikasının qanunlarına, hərbi anda və nizamnamələrin tələblərinə ciddi riayət edəcəyinə, eləcə də yüksək döyüş hazırlığına və möhkəm nizam-intizama malik olacaqlarına əminlik ifadə olunub.

General-mayor T.Hüseynov çıxış edərək hərbi andı qəbul edən əsgərləri səmimi qəlbdən təbrik edərək, qeyd edib ki, bu əlamətdar tarix hər bir əsgərin həyatında unudulmaz və yaddaqalan günlərdən olacaq. O, əsgərlərə xitabən diqqətə çatdırıb ki, hər bir hərbi qulluqçu Vətənə, xalqa, dövlət və dövlətçiliyimizə sonsuz sədaqətlə xidmət etməlidir: "Sizin çiyinlərinizdə həm vətəndaşlıq, həm də hərbçi şərəfi dayanır. Unutmayın ki, Vətən öz taleyini torpağını, millətini sevən, onun uğrunda canını fəda etməyə hazır olanlara etibar edir. Bu etibarı, bu inamı öz xidmətinizlə doğruldun. Yalnız Vətənə ləyaqətlə xidmət etməyə, həvalə olunmuş bütün vəzifələri uğurla yerinə yetirməyə və Daxili Qoşunların nüfuzunu qorumağa çalışın".

Əsgərlər adından çıxış edən əsgər Nurlan İbrahimli bu əlamətdar günü qürur hissi ilə xatırlayacaqlarını deyərək bildirib ki, hərbi and onların üzərinə çox çətin və şərəfli bir vəzifə qoyur: "Vətən öz taleyini məhz biz əsgərlərə etibar edir. Ona görə də dövlət və dövlətçiliyimizin gücləndirilməsi naminə sədaqətlə xidmət edəcək, bu etimadı fədakar xidmətimizlə doğrultmağa çalışacağıq". Daha sonra veteranlar adından çıxış edən Vaqif Nəsibov bu gün münasibətilə təbriklərini yetirərək gələcək şərəfli xidmətlərində xidmətə yeni qəbul olunmuş əsgərlərə uğurlar arzuladı.

Çıxış edən digər qonaqlar da hərbi andiçmə münasibətilə əsgərləri təbrik edib, onlara xidmətdə müvəffəqiyyətlər ar - zulayıblar.

Mərasim şəxsi heyətin təntənəli keçidi ilə başa çatıb.

**Mətbuat xidməti**

## NÜMUNƏVİ XİDMƏT

# VETERAN ZABİT OLMAQ UCALIĞI...



Daxili Qoşunların sıralarında xidmət edən veteran hərbi qulluqçular var ki, onların keçdiyi şərəfli yol, malik olduqları müsbət fərdi keyfiyyətlər bugünkü şəxsi heyətə örnəkdir. Belə hərbi qulluqçulardan biri mayor Zeynalov Müşfiq Sovet oğludur. 25031 saylı hərbi hissənin qərargahında kimya və mühəndis xidmətinin rəisi mayor M.Zeynalov şəxsi heyət arasında hörmət və nüfuzu olan zabitdir, hərbi hissə komandanlığı tərəfindən müs - bət xarakterizə edilir. Bu vətənpərvər zabitin bioqrafiyasında maraqlı və təqdirəlayiq məqamlar az deyil.

O, 1974-cü il iyulun 12-də Laçın rayonunun Fətəlipəyə kəndində dünyaya göz açıb. Orta təhsil illəri həm doğma kəndində, həm də rayonun Ağa - nus kəndindəki məktəblərdə keçib. Zəhmətkeş və milli-mənəvi dəyərlərə bağlı ailədə böyüyərək formalaşan Müşfiq ata ocağı Laçında həyatının heç vaxt unutmadığı günlərini yaşayıb.

Müşfiq Sumqayıt Politexnik Texnikumunun (hazırda Texniki Kollec) bina və qurğuların istis - marı və təmiri fakültəsini bitirib.

1992-ci ilin sentyabr ayında Müşfiq Sumqayıt Şəhər Hərbi Komissarlığı (hazırda SHXÇDX-nin Sumqayıt Şəhər İdarəsi) tərəfindən müddətli həqiqi hərbi xidmətə çağırılıb. Müdafiə Nazirliyinin o vaxt Laçın rayonunun ərazisində yerləşən "N" saylı hərbi hissəsində hərbi xidmətə başlayıb. Hərbi andı bu hərbi hissədə qəbul edib. O, hərbi hissənin tərkibində respublikamızın ərazi bütöv - lüyü uğrunda döyüşlərdə ləyaqətlə iştirak edərək torpaqlarımızın müdafiəsində dayanıb. Onun döyüş yolu Laçın, Kəlbəcər, Füzuli, Ağdam və Tərtər rayonlarının bir çox yaşayış məntəqələrindən, habelə Murovdağ silsiləsinin yüksəkliklərindən keçib. Bacarıqlı kəşfiyyatçı kimi döyüş tapşırıqlarının yerinə yetirilməsində cəsurluq nümunələri göstərib. Müşfiqə ön cəbhədə olarkən hərbi hissənin kəşfiyyat taqımının komandiri, eləcə də motoatıcı taqımın komandiri vəzifələri həvalə edilib. Müha - ribənin hər üzünü görmüş və məhrumiyyətlərini yaşamış hərbi qulluqçumuz ağır sınaqlar qarşısında da büdrəməyib.

1993-cü ilin mart ayının 6-dan 7-nə keçən gecə erməni işğalçılarının Laçın Tığık 1 kəndinə hücumu zamanı o, düşmən minaatanından atəş nəticəsində sol diz nahiyəsindən yaralanıb, mərmi qəlpəsi bu günədək onun bədənindən çıxarılmayıb. 1994-cü ilin yanvar ayında isə Kəlbəcər uğrunda döyüşlərdən birində, Yanşaq kəndi ərazisində Müşfiq kontuziya alıb. Ön cəbhədə yaralanmasına və kontuziya almasına baxmayaraq, o, qospitalda qısa müddət qaldıqdan sonra yenidən döyüşlərə atılıb.

Doğma yurdu Laçının işğal olunması, oradan və digər obalarımızdan soydaşlarımızın məcburi köçkün düşməsi Müşfiqi dərindən sarsıtsa da, həmişə döyüş ruhunu qoruyub. Ön cəbhənin ayrı-ayrı istiqamətləri üzrə bir sıra ərazilərimizin geri qaytarılması, onların üzərində üçrəngli bayrağımızın dalğalanmasında döyüşçü kimi onun da töhfəsi var. Atəşkəs dövründə də Müşfiq ön mövqelərin keşiyində dayanıb.

1996-cı ilin noyabr ayında Müşfiq baş çavuş hərbi rütbəsində Silahlı Qüvvələrin sıralarından ehtiyata buraxılıb.

1997-ci ilin dekabr ayından isə Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının tərkibində xidmət edir. 12318, 25032, 67987 saylı hərbi hissələrdə ayrı-ayrı məsul vəzifələrə təyin olunub. Komendant bölüyünün başçavuşu vəzifəsindən hazırkı vəzifəsinədək, "baş çavuş" hərbi rütbəsindən "mayor" hərbi rütbəsinədək yüksəlib.

1999-cu ildə Daxili Qoşunların Tədris Mərkəzində 2-ci dönəm təkmilləşdirmə kursunu bitirib. Qabaqcıl nəticə göstərdiyinə görə qardaş Türkiyə Respublikasına tanışlıq səfərinə göndərilib.

Qeyd edim ki, Müşfiq müxtəlif təyinatlı bölmələrdə xidmət keçdiyindən, şəxsi heyətlə zəngin iş təcrübəsi toplayıb. Ötən illər ərzində peşəkar və səriştəli hərbi qulluqçu kimi formalaşıb. "Usta" mə - harət dərəcəsinə sahiblənib. 2005-ci ildə cəzaçəkmə müəssisələrində xüsusi əməliyyatlara cəlb olunub. Həmçinin, son illər respublikamızda keçirilmiş beynəlxalq əhəmiyyətli tədbirlərdə xüsusi xidməti tapşırıqları məsuliyyətlə yerinə yetirib.

2011-ci ilin dekabr ayından xidmət rəisi kimi fəaliyyət göstərən zabit funksional vəzifələrinin öhdəsindən məharətlə gəlir. Öz sahəsi üzrə bölmələrdə döyüş təliminin təşkilinə, kimya-mühəndis vasitələrinin düzgün istifadəsinə və saxlanmasına ciddi nəzarət edir. Rəhbərlik etdiyi xidmətin daim uğurlu nəticələr əldə etməsinə çalışır. Hərbi hissənin şəxsi heyətinin döyüş hazırlığının yüksəldilməsində öz əməyini əsirgəmir. Gənc zabitlərə öz təcrübəsini bölüşür, tövsiyələr verir.

Diqqətəlayiq haldır ki, mayor M.Zeynalov Azər - baycan Respublikası Prezidentinin 10.03.2016-cı il tarixli Sərəncamı ilə "Hərbi xidmətlərə görə" medalına layiq görülüb. "Qüsursuz xidmətə görə" medalının hər üç dərəcəsi, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yubiley medalları ilə təltif olunub. Ümumilikdə, komandanlıq tərəfindən dəfələrlə mükafatlandırılıb. Ona ötən xidmət müddətində "kapitan" hərbi rütbəsi mükafat qaydasın - da vaxtından əvvəl verilib.

Mayor M.Zeynalov hərbi hissənin icitmai hə - yatında da fəaldır, zabitlər şurasının sədridir.

Veteran zabit olmaq ucalığı doğrudan da qürur hissi doğurur. Mayor M.Zeynalovun ən böyük arzusu torpaqlarımızın işğaldan azad edilməsi, doğma yurdu Laçına qovuşmaqdır. Arzunuza çatasınız, yoldaş mayor!

**Yalçın Abbasov**

# AYIQ - SAYIQLIQ



Ötən günlərdə 99713 saylı hərbi hissənin ərazisinə daxil olmaq istəyən "çağırılmamış qonaq" tutulub.

Hərbi hissənin daxili qarovulunda xidmət aparan saatdar əsgər Ceyhun Məmmədov postun qadağan olunmuş sahəsinə daxil olmağa cəhd edən Türkiyə Respublikasının vətəndaşını saxlayıb. O, hərbi hissənin qərargahına gətirilib, aidiyyəti üzrə məlumat verildikdən sonra üzərinə baxış keçirilib və akt tərtib edilərək ərazi üzrə rayon polis bölməsinə təhvil verilib.

Döyüş xidmətini yerinə yetirən əsgər Ceyhun Məmmədov vəzifə borclarının icrasına məsuliyyətlə yanaşaraq, sayıqlıq nümayiş etdirib və keşik çəkdiyi postu "göz bəbəyi" kimi qoruyub. Bu bir daha qoşunlarda xidmət edən hər bir hərbi qulluqçunun yüksək döyüş hazırlığına malik olduğundan xəbər verir.

**P.S.** Əsgər C.Məmmədov 2000-ci il fevralın 14-də Ağstafa rayonunun Muğanlı kəndində anadan olub. 2018-ci ilin aprel ayından Daxili Qoşunların 99713 saylı hərbi hissəsinin komendant bölüyündə müddətli həqiqi hərbi xidmətdədir.

**kapitan T.Əlizadə**

## ŞƏHİDLƏRİMİZ

# QORXUBİLMƏZ VƏ CƏSUR DÖYÜŞÇÜ İDİ...

***Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olmuş qəhrəman oğul və qızlarımızın şərəfli ömür yolu bu gün yetişməkdə olan gənc və yeniyetmə nəslin hərbi-vətənpərvərlik ruhunun yüksəldilməsi baxımından olduqca mühüm əhəmiyyət kəsb edir.***

***Vətənimizin müdafiəsi uğrunda şəhidlik zirvəsinə yüksələn igid oğullarımızdan biri də Daxili Qoşunların cəsur sıravi döyüşçüsü Faiq Rzayevdir.***



ŞƏHİD FAİQ RZAYEV

Əsgər Faiq Hüseynağa oğlu Rzayev 1975-ci il may ayının 13-də Bakı şəhərində anadan olub. Orta təhsilini Yasamal rayonundakı 150 saylı tam orta məktəbdə alıb. Hələ bu təhsil ocağında oxuyarkən, Faiq nizamintizamı, bilik və bacarığına görə həm müəllim kollektivinin, həm də şagirdlərin dərin hörmətini qazanıb.

F.Rzayevə orta məktəbdə oxuyarkən kimya fənnindən dərs demiş, həmçinin, ömrünün 35 ildən çoxunu pedaqoji fəaliyyətə həsr etmiş Məlahət Vəliyeva Vətən yolunda şəhid olmuş igid oğullarımızın xatirəsinin xalqımızın qəlbində əbədi yaşayacağını deyir: "... Faiq haqqında yalnız xoş fikirlər söyləmək olar. Xatirimdə çalışqan şagird, eyni zamanda da vətənpərvər və mərd bir insan kimi qalıb. Faiq həm də çox təəssübkeş oğlan idi. Onunla bir sinifdə oxuyan qızları hamıdan və hər şeydən sinəsini sipər edib qoruyardı. Fəal şagird kimi bütün fənlərə maraq göstərirdi. Lakin onun marağı və həvəsi daha çox hərbi hazırlıq və idman dərslərinə idi. Bəlkə də bu istək onu könüllü olaraq darda olan Vətəni qorumağa apardı və şəhidlik zirvəsinə ucaltdı... Faiq, həmçinin, idmanla da məşğul olardı. Məktə - bin futbol komandasının ən fəal üzvlərindən idi.

Biz bu gün də şagirdlərimizə Faiqin keçdiyi döyüş yolu barədə məlumatlar verir, məktəbimizdə onun doğum və anım günlərini ailə üzvlərinin iştirakı ilə qeyd edirik. Faiq kimi qəhrəman oğullarımızın həyat və döyüş yolu gələcəyimiz olan yeniyetmə və gənclərimiz üçün əsl vətənpərvərlik nümunəsidir. Məhz bu baxımdan şagirdlərimiz qəhrəmanlığı qanlarını Vətən torpaqlarının azadlığı uğrunda tökmüş şəhid oğullarımızdan öyrənirlər".

Lakin digər həmyaşıdları kimi, Faiqin də həyatının ən şirin çağları respublikamızın ağır və təlatümlü dövrünə təsadüf edir. Bədnam qonşularımızın Qarabağda - Xocalıda və həmsərhəd rayonlarımızda dinc əhaliyə qarşı törətdikləri vəhşiliklər Faiqin erməni faşistlərinə qarşı nifrət hissini aşıb-daşdırırdı. Ona görə də, 18 yaşı yenicə tamam olan kimi Faiq Rzayev böyük həvəslə Vətənin müdafiəsinə yollanır.

1993-cü ilin may ayında Xətai Rayon Hərbi Komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağırılan Faiq, Daxili Qoşunların 99713 saylı hərbi hissəsinin "sıravi" hərbi qulluqçusu kimi Vətənə olan müqəddəs borcunu şərəflə yerinə yetirməyə başlayır. Əsgər F.Rzayev nümunəvi xidməti, yüksək intizamı və möhkəm iradəsi sayəsində tez bir zamanda komandirlərinin, eləcə də əsgər yoldaşlarının dərin hörmət və etibarını qazanmağa müvəffəq olur.

Faiqin döyüşçü dostları onun əsl hərbçiyə xas olan müsbət keyfiyyətlərini bu gün də böyük iftixar hissi ilə xatırlayırlar. Daxili Qoşunların veteranı, İmişli rayon sakini Faiq Hüseynov vaxtilə şəhid silahdaşımızla bağlı xatirələrini bizimlə bölüşərkən bunları dedi: "Faiqi çox yaxşı tanıyırdım. Döyüşkən, cəsur və olduqca ciddi oğlan idi. Eyni zamanda mehriban, dostluqda və yoldaşlıqda möhkəm, qorxubilməz hərbi qulluqçu idi. Bu xarakterik xüsusiyyətlərinə görə də Faiq xidmətə gəldiyi ilk günlərdən bütün yoldaşlarının dərin rəğbə - tini qazanmağa müvəffəq olmuşdu...

Faiqin əsl dost, əsl döyüşçü olması ön cəbhədə də özünü qısa bir zamanda göstərdi. Ən çətin döyüş əməliyyatları üzrə tapşırıqların icrasına Faiq tərəddüd etmədən, canla-başla gedirdi. O, heç bir çətinlikdən qorxmurdu. Bəli, deyə bilərəm ki, əsgər F.Rzayev doğurdan da əsl qəhrəman idi".

**20.03.1994-cü il.** Əsgər F.Rzayevin son döyüş günü... Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi ətrafında döyüş tapşırığını yerinə yetirərkən tərkibində Faiqin də olduğu beş nəfərlik kəşfiyyat qrupu (çavuş Nəcəfov Səttar Sədiyar oğlu, əsgərlər – Rzayev Faiq Hüseynağa oğlu, Abdullayev Tofiq Fərhad oğ - lu, Mustafayev İlqar Firuddin oğlu və Səmədov Gülümxan Hüseyn oğlu) düşmən mərmisinin partlaması nəticəsində ağır xəsarət alır. Bunun nəticəsində döyüşçülərdən ikisi - çavuş Səttar Nəcəfov və əsgər İlqar Mustafayev həmin gün, digər üç döyüşçü - əsgərlər Faiq Rzayev, Tofiq Abdullayev və Gülümxan Səmədov isə martın 21-də gözlərini əbədi yumaraq şəhidlik zirvəsinə yüksəlirlər.



ŞƏHİD FAİQ RZAYEVİN 150 SAYLI TAM ORTA MƏKTƏBDƏ BÜSTÜ

Vətənin igid oğlu F.Rzayev Bakı şəhərindəki 2-ci Şəhidlər Xiyabanında dəfn edilib.

Azərbaycan Respublikası Bakı Şəhər Xalq Deputatları Sovetinin Rəyasət Heyətinin 24.06.1994-cü il tarixli müvafiq qərarı ilə Nazirlər Kabineti qarşısında qaldırılmış vəsatət əsasında bir zamanlar təhsil aldığı Yasamal rayon 150 saylı tam ümumtəhsil məktə - binə Daxili Qoşunların qəhrəman döyüşçüsü şəhid Faiq Hüseynağa oğlu Rzayevin adı verilib. Məktəbin həyətində isə cəsur döyüşçünün büstü ucaldılıb.

Azərbaycan Respublikası Prezidentinin 8 mart 2014-cü il tarixli Sərəncamı ilə əsgər F.Rzayev respublikamızın ərazi bütövlüyünün təmin olunmasında iştirak etdiyinə, döyüş zamanı igidlik göstərdiyinə, öz xidməti vəzifələrini və hərbi hissə qarşısında qoyulmuş tapşı - rıqları yerinə yetirərkən fərqləndiyinə görə "İgidliyə görə" medalı ilə (ölümündən sonra) təltif edilib.

Bu barədə cəsur döyüşçünün anası Rüxsarə Məmmədovanın imzası ilə "Xalq" qəzetinin 03.02.2017-ci il tarixli sayında dərc edilmiş "Oğlu Cocuq Mərcanlıda şəhid olmuş ananın ürək sözləri" başlıqlı məqalədə qeyd edilib: "...2014-cü il martın 8-də Azərbaycan Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə şəhid oğlum Faiq Rzayev "İgidliyə görə" medalı ilə təltif olunub. Dövlət başçısının bu sərəncamı, 8 Mart Beynəlxalq Qadınlar Günündə mənə ən böyük hədiyyə oldu. Həyatım boyu belə qiymətli hədiyyə almamışdım. Sevincimin həddi-hüdudu yox idi. Həmin medal Daxili Qoşunların rəhbərliyi tərəfindən şəhid anası kimi mənə təqdim olundu".

Bizimlə söhbət zamanı şəhid oğlu ilə qü - rur duyduğunu bildirən Rüxsarə ana, bu gün Cocuq Mərcanlı kəndinin bərpa edilməsindən sonra yerli sakinlərin doğma yurdlarına qayıdışından və orada dinc həyatın bərqərar olmasından hədsiz dərəcədə sevindiyini vurğuladı: "Oğlumun qanı tökülən Cocuq Mərcanlı kəndi bərpa olunub, məcburi köçkün həyatı yaşamış əhali öz yurduna qayıdıb. Sevinirəm ki, bütün bunlarda mənim də oğlumun zəhməti var...

Neçə illərdən bəri gözlədiyim gün, nəhayət, yetişdi. Ümid edirəm ki, bu kəndin azadlığı uğrunda canını qurban vermiş Daxili Qoşunların cəsur döyüşçülərinin qanının töküldüyü yerdə onların şərəfinə abidə qoyulacaq və hər birinin adı bu abidənin üzərinə həkk olunacaqdır".

**Allah şəhidlərimizə rəhmət eləsin!**

**kapitan A.Əhmədov,**
**Mənəvi-psixoloji hazırlıq şöbəsində muzey rəhbəri**

*idman*

# HƏRBİ QULLUQÇULARIMIZ FƏXRİ KÜRSÜDƏ



***Daxili Qoşunların xidməti-döyüş fəaliyyətində İdman komandasının özünəməxsus yeri var. İdman komandasının əldə etdiyi nailiyyətlər Daxili Qoşunların hər bir hərbi qulluqçusun - da böyük sevinc hissi doğurur.***

Daha bir sevincli xəbər Ukraynanın Odessa şəhərindən gəldi. İyul ayının 12-dən 15-dək idmanın boks növü üzrə "A" kateqoriyalı beynəlxalq turnir keçirilib. Yarışda Daxili Qoşunları əsgər Kamran Şahsuvarlı təmsil edib. 75 kq. çəki dərəcəsində qüvvəsini sınayan Kamran rəqiblərini peşəkarcasına üstələyərək fəxri kürsünün ikinci pilləsini fəth edib. Beynəlxalq yarı - şın gümüş mükafatçısı olan əsgər K.Şahsuvarlı uğurlarını davam etdirmək niyyətindədir.

**P.S.** 1992-ci il dekabrın 6-da Bakı şəhərində anadan olan əsgər K.Şahsuvarlı boks üzrə əməkdar idman ustasıdır, "Tərəqqi" medalının sahibidir. İkiqat Azərbaycan çempionu, İslam Oyunlarının qalibidir. Avropanın gümüş medalçısı, Dünya birinciliyinin ilk üçlüyünə daxil olan hərbi qulluqçumuz, eyni zamanda sonuncu Olimpia oyunlarının da bürünc mükafatçısıdır.

**x x x x**

İyulun 30-dan avqust ayının 1-dək daxili işlər orqan və hissələri arasında idmanın sambo növü üzrə şəxsi və komanda birinciliyi keçirilib. Yarışda Daxili Qoşunları 8 idmançı və 1 nümayəndə heyəti təmsil edib. Turnirdə şəxsi birinci - likdə bütün rəqiblərini üstələyən



çavuş Kamal Məmmədli (16075 saylı hərbi hissə, 62 kq.), əsgər Hüseyn Heydərov (16073 saylı hərbi hissə, 74 kq.), çavuş Elvin Dövlətov (99713 saylı hərbi hissə, 68 kq.), əsgər Vüqar İsmayılov (99713 saylı hərbi hissə, 100 kq.), baş leytenant Seymur Rzayev (99713 saylı hərbi hissə, +100 kq.) 1-ci yeri, əsgər Müşfiq Hüseynov (16075 saylı hərbi hissə, +100 kq.) isə 2-ci yeri tutublar.

Ümumilikdə, əldə olunan nəticələrə görə Daxili Qoşunların yığma komandası komanda birinciliyində I yerə layiq görülüb.

**kapitan T.Əlizadə**

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ HAQQINDA MARAQLI FAKTLAR

***(əvvəli ötən sayımızda )***

• 1919-cu ilin yanvarında Qarabağda erməni separatçılarının qanunsuz hərəkətlərinə son qoymaq üçün Qarabağ general-qubernatorluğu yaradıldı. Fevralda Xosrov bəy Sultanov qubernator təyin olundu;

• 1919-cu ilin fevralında ermənilər tərəfindən Naxçıvana edilən hücumların qarşısını almaq üçün Naxçıvan general-qubernatorluğu yaradıldı;

• 1919-cu il martın 3-də Azərbaycan Teleqraf Agentliyi yaradıldı;

• 1919-cu il martın 21-də Əlifba islahat komissiyası yaradıldı. Məqsəd latın əlifbasına keçməkdən ibarət idi;

• 1919-cu ilin martından Novruz bayramı dövlət səviyyəsində qeyd olundu;

• 1919 və 1920-ci illərdə 31 mart dövlət səviyyəsində milli matəm günü kimi qeyd olundu;

• 1919-cu ilin martında "Əksinqilabla mübarizə təşkilatı" adı altında Milli Təhlükəsizlik Xidməti yaradıldı;

• 1919-cu il iyunun 11-də Dövlət Müdafiə Komitəsi yaradıldı;

• 1919-cu il iyunun 15-də Denikin təhlükəsinə qarşı Gürcüstanla hərbi pakt imzalandı;

• 1919-cu il iyunun 28-də Böyük Britaniya hökuməti ingilis ordusunun Qaf - qazdan çıxarılacağı haqqında Paris Sülh Konfransına rəsmi məlumat verdi;

• 1919-cu il iyulun 21-də parlament Azərbaycan Respublikasının Müəssislər Məclisinə seçkilər haqqında əsas - naməni təsdiq etdi. Əsasnaməyə görə, seçkilərdə qadın və kişi bərabərliyi təsbit olundu;

• 1919-cu il avqustun 11-də parlament Azərbaycan vətəndaşlığı haqqında qanun qəbul etdi. Yəni rəngindən, irqindən, cinsindən asılı olmayaraq, Azərbaycan ərazisində yaşayan bütün millətlərin nümayəndələri qanun qarşı - sında bərabər elan olundu;

• 1919-cu il avqustun 24-də Naxçı - vanda ABŞ general-qubernatorluğunun yaradılması barədə polkovnik V.Haskelin bəyanatı elan edildi və amerikalı polkovnik Edmund Delli qubernator təyin olundu. Lakin Azərbaycan hökumətinin ciddi müqaviməti və Naxçıvan əhalisi - nin kəskin etirazı nəticəsində amerikalı - lar öz niyyətlərini reallaşdıra bilmədilər;

• 1919-cu il avqustun 20-dən sentyabrın 2-nə kimi Azərbaycan müəllimlərinin birinci qurultayı keçirildi;

• 1919-cu il avqustun 22-də Dağlıq



Qarabağ erməniləri Azərbaycan hökuməti qarşısında 26 bənddən ibarət öhdəlik götürdülər;

• 1919-cu il avqustun 23-də qaçqın və köçkünlərlə bağlı komissiya yaradıldı;

• Hökumət qaçqın düşən əhali ilə bağlı parlament və hökumət səviyyəsində 10 qərar və qanun qəbul etdi;

• 1919-cu il avqustun 25-də ingilis qüvvələri Bakını tərk etdilər;

• 1919-cu ilin avqustunda Xəzər Hərbi Dəniz Donanması yaradıldı;

• 1919-cu il sentyabrın 1-də Azərbaycan Parlamenti 100 nəfər azərbaycanlı tələbənin xaricə göndərilməsi haqqında qanun qəbul etdi;

• 1919-cu il sentyabrın 1-də Azərbaycan Parlamenti Bakı Dövlət Universitetinin təsis edilməsi haqqında qanun qəbul etdi. Dərslər noyabrın 1-də başladı;

• 1919-cu ilin yayında Azərbaycan hökuməti özünün maliyyə çətinliklərinə baxmayaraq, Dağıstan Dağlılar Respublikasına 50 milyon manat həcmində yardım göstərdi;

• 1919-cu ilin avqustunda Lənkəranda qiyamçı qüvvələr darmadağın edilərək bölgədə Cümhuriyyətin hakimiyyəti bərpa olundu;

• 1919-cu il sentyabrın 3-də Lənkə - ran bölgəsindəki rus hərbi qüvvələri tərksilah edildi;

• 1919-cu il sentyabrın 30-da Dövlət Bankı təşkil olundu;

• 1919-cu ilin oktyabrında mətbuatda senzura ləğv olundu;

• 1919-cu il noyabrın 23-də Tiflisdə Azərbaycan-Ermənistan sazişi imzalandı;

• 1919-cu ilin dekabrında "İstiqlal" muzeyi açıldı;

• 1919-cu ildə Bakı neftini dünya bazarına çıxarmaq üçün Bakı-Batum neft kəməri bərpa edilərək istifadəyə verildi;

• 1919-cu ilin sonlarında İstehkamçılar məktəbi, Hərbi dəmiryolçular məktəbi, Hərbi feldşer məktəbi və Hərbiyyə məktəbi açıldı;

• Milli hökumət Gəncədə Nizami məqbərəsinin tikintisinə 500 min manat vəsait ayırdı. Amma məqbərəni tikmək üçün vaxt çatmadı;

• 1920-ci il yanvarın 11-də Versalda Azərbaycan Paris Sülh Konfransının Ali Şurası tərəfindən de-fakto tanındı;

• 1920-ci il yanvarın 14-də Azərbaycanın Paris Sülh Konfransının Ali Şurası tərəfindən de-fakto tanınması şərəfinə Təzəpir məscidində dualar oxundu. Parlamentin təntənəli iclası keçirildi, Hürriyyət meydanında Milli Ordunun rəsmi keçidi oldu;

• 1920-ci il martın 20-də Sovet Rusiyası ilə ticarət müqaviləsi imzalandı. Lakin Rusiya bu müqaviləyə riayət etmədi;

• 1920-ci il martın 20-də Azərbaycan Xalq Cümhuriyyəti İran tərəfindən de-fakto və de-yure tanındı;

• 1920-ci il martın 20-də İranla bağlanmış müqaviləyə əsasən, Tehranda səfirlik, Təbrizdə baş konsulluq, Rəştdə konsulluq, Ərdəbildə, Məşhəddə vitsekonsulluq, Xoy və Əhərdə konsul agentlikləri yaradıldı;

• 1920-ci ilin əvvəllərində Azərbay - can Xalq Cümhuriyyəti Ordusunun sayı 40 minə çatırdı. Bunun 30 mini piyada, 10 mini isə süvari idi;

• Bakı-Culfa dəmir yolu inşa edilərək istifadəyə verildi;

• Kür çayı üzərində körpü salındı;

1920-ci il aprelin 27-də Azərbaycan Parlamentinin sonuncu – 145-ci iclası axşam saat 20:45-də başladı və 23:25-dək davam etdi;

1920-ci il aprelin 27-də parlament səs çoxluğu ilə 7 şərtlə hakimiyyətin kommunistlərə verilməsi haqqında qərar qəbul etdi.

**A.İsgəndərov,**
**tarix elmləri doktoru, professor**

# MÜASİR DÖVRDƏ İNFORMASİYA AMİLİ VƏ ONUN HƏYATIMIZDA ROLU...

Müasir qloballaşma dövründə informasiya amili və informasiya texnologiyalarının cəmiyyətdə rolu getdikcə daha da artır. Həyatımızın elə bir sahəsi yoxdur ki, oranın informasiya müstəvisinə və informasiya texnologiyalarına bağlılığı olmasın. İnformasiya cəmiyyətdaxili proseslərin və cəmiyyətlərarası tə - masların işıqlandırılması, təhlili və proqnozlaşdırılması baxımından mühüm əhəmiyyət kəsb edən məlumatverici qaynaq, habelə ictimai maarifləndirmə mənbəyidir. Bu gün informasiya asanlıqla maneələri, sədləri aşan, sürətlə yayıla bilən, cəmiyyət gündəmində ciddi rezonans doğuran, müxtəlif ideoloji ba - xışların təbliği vasitəsinə çevrilən, fərdləri ayrı-ayrılıqda və kütləni də yönləndirmə gücünü daşıyan, imic formalaşdıran, mübadilə xüsusiyyəti ilə bütün sahələrə təsir göstərən, çoxşaxəli məzmuna malik olan ictimai məfhumdur. İnformasiya daşıyıcıları arasında televiziya, radio, qəzet və jurnallar hazırda in - ternet şəbəkəsinin imkanları ilə müqayisədə çeviklik, mövzu zən - ginliyi və əhatəetmə baxımından geriləsə də, cəmiyyət həyatında onların rolunu, ictimai rəyə təsirlərini, tarixi salnaməni əksetdirmə potensialını kiçiltmək, maarifləndirici missiyasını qiymətləndirməmək düzgün olmazdı. Qeyd etmək lazımdır ki, informasiyanın məzmununun aktuallığı ilə yanaşı, onun hansı məqamda və formada təqdim edilməsi də ictimai marağı cəlbetmə nöqteyi-nəzərindən əhəmiyyətlidir. Bəzən vacib bir informasiyanın yayımlanması üslubun - da qüsurlar və ya ləngiməyə yol verilməsi onun effektivliyini azaldır. Ona görə də ciddi informasiyanın əldə edilməsi, məzmununun yayım üçün hazırlanması və çatdırılması prosesi peşəkar yanaşmadan keçir.

Ziddiyyətlərin, qütbləşmənin, qarşıdurmanın getdikcə dərinləşdiyi, müxtəlif ənənəvi ideoloji konsepsiyaların aşınmaya məruz qal - dığı, hərbi münaqişələrin çoxaldı - ğı, terror qruplaşmalarının fəallaşdığı bugünkü həyatımızda informasiyanın neqativ elementlərlə yüklənməsi gerçəkliyi də qarşıya çıxır. Təsadüfi deyil ki, müasir dövrdə informasiya müharibəsi ifadəsi tez-tez səslənir və yazılır. İnformasiya müharibəsi ifadəsinin məğzindən göründüyü kimi, burada söhbət müəyyən məqsədlər üçün xüsusi olaraq seçilmiş və geniş, eləcə də məhdud miqyasda yayılması həyata keçirilən, insanlara psixoloji təsir gücünə malik, həmçinin, ictimai baxış və rəyi yönləndirməyi, onun - la manipulyasiya etməyi hədəflə - yən, bununla yanaşı, imic və nüfuza zərbə vurulmasına hesablanan, xof, çaşqınlıq, ruh düşkünlüyü, yanlış təsəvvür yaratma kimi fəsadlara yol açan bilən məlumatlar toplusunun, yaxud təlqinedici çağırışların, müraciətlərin təzyiq, təhdid, təcrid, basqı vasitəsi olaraq istifadə edilməsindən gedir. Bütün bunlar informasiyanın hansı imkanları özündə ehtiva etdiyini aydın şəkildə ortaya qoyur. Beləliklə, informasiya düşmənə, rəqibə qarşı müharibə aparılması vasitəsinə çevrilməklə bu gün dünya düzənin - də mühüm faktor kimi xarakterizə olunur. Ona görə də hər bir cəmiyyət üçün informasiya təhlükəsizliyi məsələsi bu gün xüsusilə aktuallıq kəsb edir. Özünü kənar, xarici dairələrdən yönləndirilən informasiya basqınından qorumağı bacaran cəmiyyətdə sabitliyi pozmaq cəhdləri nəticəsiz qalır. Mənfi informasiya basqınından qorunmaq üçün cəmiyyətdə milli-mənəvi dəyərlərə bağlılıq, ictimai fəallıq, vətəndaş həmrəyliyi, dövlətçilik təfəkkürünün aşılanması, informasiya axınının müntəzəm monitorinqinin aparılması və filtrlənməsi, ölkənin kütləvi informasiya vasitələrinin mütəşəkkil, uzlaşdırılan, müasir çağırışlara cavab verən fəaliyyəti vacibdir.

Azərbaycan Ermənistanın hərbi təcavüzünə məruz qaldığı ilk illərdə həm də informasiya blokada - sı ilə üzləşmişdi. Dünyanın ayrı-ayrı ölkələrində güclü mövqeyə sahiblənmiş erməni diasporu öz imkanlarından istifadə edərək, dövlətimizin informasiya təcridi vəziyyətinə salınması yönündə bu günədək böyük səylər göstərib və hazırda da bu mənfur fəaliyyətini davam etdirir. Ancaq görkəmli dövlət xadimi, Milli Lider Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi dövrdə Azərbaycan onun ətrafında süni olaraq yaradılmış informasiya blokadasını yara bildi və öz haqq səsini beynəlxalq ictimaiyyətə çatdırdı. Milli Lider Heydər Əliyevin təməlini qoyduğu uğurlu daxili və xarici siyasət kursunu layiqincə da - vam etdirən Respublika Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin xalqımız qarşısında böyük xidmətlərindən biri də odur ki, Azərbaycan beynəl - xalq arenada söz sahibi olan, mövqeyi ilə hesablaşılan, sivilizasiyaların dialoquna önəmli töhfə verən nüfuzlu dövlət kimi tanınır. Bütün bu nailiyyətlərin əldə olunması dövlətimizin informasiya siyasətin - də ardıcıllığın, sistemliliyin, aktivli - yin, milli informasiya resurslarımı - zın inkişafına göstərilən hərtərəfli dəstəyin nəticəsidir.

İnformasiya qlobal miqyasda götürdükdə millətin, dövlətin səsi deməkdir. Nəzərə almaq lazımdır ki, informasiya məkanında öz möv - qeyini əldən verməmək üçün dövlətin nəinki aidiyyəti qurumları, o cümlədən hər bir vətəndaş çalışmalı, öz töhfəsini verməlidir. Bu sahədə təşəbbüs göstərmək, zamanın nəbzini tutmaq, innovasiyaları tətbiq etmək, rəqabətə davam gətirmək böyük rol oynayır.

Bəzən informasiya ilə işləmək, ona düzgün reaksiya vermək, mənbəyini dəqiqləşdirmək, bu və ya digər auditoriyaya çatdırılması üslubunu müəyyən etmək bacarıq - ları konkret vəzifələr və şərait üçün daha çox zərurət təşkil edir. Qa - nunvericiliklə tənzimlənən informasiyanın əldə olunması və yayılma - sı qaydalarının dərindən öyrənilməsi də ictimai mənafelər baxımından diqqət mərkəzində saxlanmalıdır.

Hərbi xidmət sahəsinə aid informasiyaların ictimailəşdirilməsi məsələsi də həssas və məsuliyyət - li yanaşma tələb edən istiqamətdir. Burada dövlət mənafeyi və maraq - ları, təhlükəsizlik faktoru, hərbi xidmətin xüsusiyyətləri, ölkəmizə qarşı informasiya müharibəsi təhdidi - nin mövcudluğu mütləq nəzərə alınmalıdır. Bir sıra hallarda mülki sahədə çalışan jurnalistlər, bloger - lər, ayrı-ayrı mətbuat orqanları, saytlar, informasiya agentlikləri hərbi xidmət sahəsini qeyri-peşə - kar şəkildə işıqlandırılar, mövzu üzrə özlərinə zəhmət verib aidiyyəti ekspertlərlə məsləhətləşmirlər, müvafiq ədəbiyyatı mütaliə etmirlər, hərbi qurumların mətbuat xidmətləri ilə əlaqə saxlamırlar. Bunun nəticəsində informasiya məkanında ölkəmizin hərbi maraqlarına cavab verməyən, zərərli olan informasiyalar yayılmış olur.

Hərbi qurumların mətbuat xidmətləri də informasiya təhlükəsizliyi məsələsində ictimaiyyətlə, kütləvi informasiya vasitələri ilə işini düzgün qurmalı, etibarlı və obyektiv məlumat mənbəyi kimi onların güvənilməsini fəaliyyətlərinin vacib cəhəti kimi dəyərləndirməlidirlər. Çünki informasiya mənbəyinə güvən varsa, informasiyaya da inanı - lır, istinad edilir. Elə vəziyyətlər olur ki, qabaqlayıcı informasiyanın təsirini, kəsərliliyi daha çoxdur. Ancaq bəzi hallarda informasiyanın veril - məsinin gecikdirilməsi labüdlüyü də qaçılmaz olur. Əsas meyarlar - dan biri də informasiya vaakumu - nun (boşluğunun) qarşısının alınmasıdır. Çünki informasiya məkanı heç vaxt boş qalmır və ona müdaxilə etmək istəyən, onu yönləndirməyə cəhd göstərən məkrli qüvvələr həmişə mövcuddurlar.

Biz informasiya əsrində yaşa - yırıq. Gələcək inkişaf ötən dövrlərdə formalaşmış və bu gün yenilə - nən, təkmilləşən, genişlənən infor - masiya bazasına əsaslanacaqdır.

**Yalçın Abbasov**

## Çin S-400-ün ilk dəstini əldə edib

Ordu.az xəbər verir ki, bu barədə adı çəkilməyən hərbi-diplomatik mənbə bildirib.



"Ötən həftə Rusiya tərəfindən dəniz vasitəsilə S-400 raket sistemlərinin Çinə çatdırılması ilə bağlı qəbuletmə sertifikatı imzalanıb. Sənədlər imzalandıqdan sonra sistemlər Çin rəhbərliyinə keçib", - deyə mənbə qeyd edib.

Rusiya Federal Hərbi Texniki Əməkdaşlıq Xidməti bu informasiya ilə bağlı açıqlama verməkdən imtina edib.

Qeyd edək ki, Rusiyanın Çinə S-400-lərin satışı ilə bağlı müqavilə imzalamasına dair ilk xəbərlər 2014-cü ilin noyabrında yayılıb. Bundan bir il sonra, 2015-ci ilin noyabrında Rusiya prezidentinin hərbi-texniki əməkdaşlıq üzrə müşaviri Vladimir Kozin bu məlumatı təsdiq edib. Çin bu sistemlərin ilk xarici müştərisi olub və o, həmin sistemlərin iki dəstini əldə edəcək.

# HƏRBİ XƏBƏRLƏR

**-YENİLİKLƏR -**



## İİKK Su-22-ləri uzaqmənzilli qanadlı raketlərlə təchiz edəcək

Ordu.az xəbər verir ki, bunu İİKK-nin Aerokosmik Qüvvələrinin komandanı briqada generalı Əmir Əli Hacızadə bildirib.

Onun sözlərinə görə, ümumilikdə 10 ədəd Su-22 təyyarəsi modernizasiya ediləcək. Onlar 1500 kilometr mən - zilə sahib qanadlı raketlər, həmçinin, "ağıllı bombalar"la təchiz olunacaq.

Qeyd edək ki, İran Hərbi Hava Qüv - vələrinin inventarında əksəriyyəti 1979-cu ildən öncə əldə edilmiş ABŞ və Rusiya istehsalı olan qırıcı təyyarələr mövcuddur.

## ABŞ QQ "Abrams"ları raket və müdafiə sistemləri ilə silahlandıracaq

Ordu.az xəbər verir ki, bu barədə



ABŞ Müdafiə Nazirliyi məlumat yayıb.

Məlumata görə, müqaviləyə əsa - sən, "DRS Land Systems" "Abrams"ları raket və raketdən müdafiə sistemləri ilə təchiz edəcək.

ABŞ QQ sözügedən müqavilə çərçivəsində ordunun 4 briqadasının "Abrams" tanklarına həmin sistemlərin əlavə edilməsini planlaşdırır.

## Allah rəhmət eləsin

Daxili Qoşunların Komandanlığı polkovnik-leytenant Xalid Bağırova əzizi **Sahib Bağırovun** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Daxili Qoşunların Veteranlar Şurası ehtiyatda olan gizir **İsmayıl Qarayevin** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

*TƏSİSÇİ:*
**Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.**

**REDAKSİYANIN ÜNVANI:**
**AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.**
**Əlaqə telefonları: 560-22-63**

**Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.**

**Şəhadətnamə 3565**
**Sayı 3000**